Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

N 137
(4369) CÜMƏ, 23 İYUN 2006-cı il Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur www.azerbaijan.news.az Qiyməti 20 qəpik (1000 AZM)

# Şeyxülislam İKT Ölkələri Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının iştirakçıları ilə görüşmüşdür

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülisalm Allahşükür Paşazadə İraqın xarici işlər üzrə dövlət naziri Rafe əl-İssavi və onu müşayiət edən şəxslərlə görüşmüşdür.

Görüşdə Azərbaycanla İraq arasında qədim tarixi əlaqələrdən, İslam Konfransı Təşkilatı ölkələrinin Xarici İşlər Nazirləri Şurasının Bakıda başa çatan 33-cü sessiyasının yekunlarından, onun qərarlarının İslam dövlətlərinin əməkdaşlığının möhkəmləndirilməsində əhəmiyyətindən danışılmışdır.

Rafe əl-İssavi İraq hökumətinin və xalqının salamını Azərbaycan xalqına çatdırmış, terrorizmlə mübarizədə, ölkəsində sülhün və əmin-amanlığın bərpasında İraqı dəstəklədiyi üçün Azərbaycan hökumətinə minnətdarlığını bildirmişdir.

Şeyxülislam qonağa xatirə hədiyyələri təqdim etmişdir.

Sonra İraq naziri jurnalistlərin suallarına cavab vermişdir.

* * *

Qafqaz Müsəlmanları İdarəsinin sədri A.Paşazadə İslam Ticarət və Sənaye Palatasının prezidenti Şeyx Saleh bin Abdullah Kamalla da görüşmüşdür.

Görüşdə ölkəmizin Səudiyyə Ərəbistanı ilə qarşılıqlı münasibətlərindən danışılmış, mərhum kral Fəhdin və ümummilli liderimiz Heydər Əliyevin şəxsi dostluğunun əməkdaşlığın inkişafında rolu vurğulanmışdır.

Qonaq demişdir ki, Bakıda Azərbaycan Ticarət və Sənaye Palatası ilə əməkdaşlıq haqqında memorandum imzalamış, yerli iş adamlarının bir qrupu ilə görüşmüşdür. İslam Ticarət və Sənaye Palatası qarşılıqlı əlaqələrin daha da genişlənməsi, respublikaya müvafiq yardım göstərilməsi üçün Bakıda öz nümayəndəsini təyin etmək niyyətindədir.

Saleh bin Abdullah Kamal regionda İslamın və mənəviyyatın bərpasında A.Paşazadənin xidmətlərini vurğulamış, Azərbaycana tərəqqi, işğal altındakı torpaqlarımızın tezliklə azad edilməsini arzulamışdır.

***AzərTAc***